# ƏBƏDİYYƏT QALASISAN İSMAYIL

## Türk dünyasının böyük oğlu, qüdrətli qələm sahibi İsmayıl Şıxlının anadan olmasının 100 illiyi münasibətilə...

*(Əvvəli ötən sayımızda)*

Mən də yaradıcılığa şeirlə başladım, Allaha çox-çox şükürlər olsun ki, tez başa düşdüm, şeir yaza bilsəm də, şair deyiləm. Ona görə də şeir yazmağın daşını atdım, nəsrə keçdim. Nəsrdə də özümü tapdım. Amma sən haqq vergili şairsən bunu qətiyyən bacarmazsan". "Bəli, mən bunu bacarmaram. Mən şeir yazmağın daşını atsam onda bağrım çatlayar, ölərəm," - deyə cavab verərdim.

O bir dəfə Yazıçılar Birliyinin qurultayında çıxışa hazırlaşarkən mənə belə sözlər dedi: - "Mən bilmirəm, məni bu YB-nə kim sədr təyin elətdirdi. (Sizcə, İsmayıl Şıxlıdan əvvəllər və sonra Yazıçılar Birliyinə sədr olanlardan biri belə sözlər deyərdimi? Əsla, nəinki belə sözlər deyərdilər, heç düşünməzdilər də...) Bu mənim ürəyimcə olan iş deyil. Bu məruzəni də qətiyyən yazmaq istəmirəm. Axı mən niyə gədə-güdələrin dediyi ilə oturub-durmalıyam, ona-buna da şeir, poema, yaxud da hekayə, roman, dram yazmağı öyrətməliyəm?" Mən də İsmayıl Şıxlını dinləyib dedim: "Bir halda ki, bu iş ürəyinizdən deyil, növbəti seçkiyə qədər işləyin, bu müddət ərzində də imkanınız daxilində istedadlı qələm sahiblərinə arxa olun. Sonra ərizə yazıb, könüllü istefa verin. Nə çoxdu proletar ədəbiyyatının vintçiyi olan (Lenin ədəbiyyatı proletar diktaturasının vintçiyi adlandırmışdı) şair oğlu şair, yazıçı oğlu yazıçı, biri olar. YB-nin sədri İsmayıl Şıxlı bığaldı qımışıb dilləndi: "Yaxşı bu məruzəni ya deyirsən yazım, sən də yaza bilirsənsə mənim bu əhvalıma bir baməzə şeir yaz. Bəlkə qalan o şeir oldu. Baş üztə dedim.

İsmayıl Şıxlının atası Qəhrəman müəllim Kosalar kəndində dərs dediyindən o, ailəsi ilə birlikdə orada kirayə ev tutub yaşayırdı. İsmayıl Şıxlı da 1-ci sinifə Kosalar kəndindəki orta məktəbə getmişdi. Onun ilk müəllimi də atası olmuşdu. İsmayıl Şıxlının atası Qori müəllimlər seminariyasını bitirmişdir. Onun müəllimi Azərbaycan Demokratik Cümhuriyyətinin qurucularından olan klassik Azərbaycan ədəbiyyatının cəfakeş tədqiqatçısı Firudin bəy Köçərli olmuşdur. İsmayıl Şıxlı sonuncu əsəri olan "Ölən dünyam" romanında Firudin bəy Köçərli haqqında intəhasız məhəbbətlə söz açmışdır.

Qəhrəman müəllimin evinə axşamlar tez-tez müəllim yoldaşları söhbət etməyə gələrdi. O, bu söhbətlərində onlara deyərdi: "Məndən sizə əmanət. Bu sosializm hər necə binadırsa, bilin ki, onun himi əyridir. Bünövrəsi əyri olduğundan o buna yuxarı qalxdıqca istənilən vaxt uça bilər. Siz çalışın ki, o binanın altında qalmayasınız. Bir də anlayın ki, bu binanı quranların əksəriyyəti ali təhsil almayan elmi, əxlaqı, qabiliyyəti yerində olmayan naşı adamlardır. Çox da onlar Marks, Engilis, Lenin, Stalin deyə sayıqlayırlar. Amma heç bilmirlər ki, Marks, Engilis, Lenin, Stalin nə əməlin sahibləridir, kim olublar və nə deyiblər? Odur ki, onlara baş qoşmayın, bacardıqca gözəl işlər görün, xeyirxah əməllər tutun, onlar sizdən də soruşsalar ki, niyə nelə edirsiniz, onda cavab verin ki, Marks, Engilis, Lenin, Stalin deyənləri yerinə yetirirk. Qaldı kommunistlərin dediyi kommunzmə, getdikcə pulun sıradan çıxmasına, yağın, balın sel kimi axmasına, kimin kimdən xoşu gəlirsə, ondan kommunizm nəsili



törətməsinə, bunlar axmaq adamların sərsəm fikirləridir. Və onlara inananlar da avamlardır.

Bu gün sovet dövlətinə başçılıq eləyən Stalinin kim oluğunu siz bilməsəniz də mən yaxşı bilirəm. Onu Qoridə oxuduğum vaxtlardan tanıyırdım. Qoriyə Batumdan köçdüyünü deyirdilər. İbtidai təhsilini Qoridə alandan sonra ruhani seminariyasını da bitirmişdi. İçki düşkünü olan çəkməçi atası onlarla yola getmədiyindən onları atıb Tiflisə getmişdi, orda da onu bıçaqlayıb öldürmüşdülər. Stalin gürcü sayılsa da gürcülərin ondan xoşu gəlmirdi. Deyilənə görə onun atası türk paşası olub. Onlar Batumdən Qoriyə köçəndə onların bir türk nökərləri də varmış. Onlar Qoriyə köçəndə çox varlı imişlər. Stalinin anası zər-zibaya bələnibmiş, Stalinin atası hər gün yeyib-içib pulu göyə sovururmuş. Camaata elə bir əyyaş adamın bu qədər sərvətə necə sahib durması çox maraqlı gəlirmiş, Qoridə olarkən Vissarianın bir neçə uşağı anadan olsa da onların heç biri sağ qalmamışdı. Ona görə deyirdilər ki, Stalinin atası Vissiarian olmayıb, Türk paşası olub. Hətta bəziləri deyirdilər ki, Stalinin atası elə nökərləridir. Stalinin görkəmi, hərəkəti, davranışı da xoşa gələn deyildi. Onun boyu təxminən 155 sm olardı. Üzü cüzamlı xəstənin üzü kimi çopurla örtülü idi. Amma bu eybəcər görkəminə baxmayaraq, o çox müstəbeh, özündən razı və iddialı adam idi. Özünü elə aparırdı ki, guya ən uca dağ bu özüdür və ən alçaq dağları da bu yaradıb. Çox qürurlu adamlar olan gürcü knyazları da ona bu xüsusiyyətlərinə görə xoş üz göstərmirdilər. Ona görə də o 16-17 yaşlarından Qazaxın, Şəmkirin, Gəncənin imkanlı adamlarının ətrafında hərlənərək onların verdiyi sadağa ilə dolanardı, heç kim heç nə verməyəndə də qatarın gəldiyi vaxtlarda yalquzaq kimi dəmiryol vağzalında görünərdi. Əsrin əvvəllərində çarın qatarlarını yaran qaçaqlar vardı. Onlar çox igid və səxavətli adamlar idilər. Onlar qatarı yarıb Bakı kapitalistlərinin çara göndərdiyi hədiyyələri, naz-nemətləri götürərdilər. Bunların çoxunu da yoxsul camaata paylayardılar. Stalin də camaata qarışıb onlardan pay umardı. indi onu Qafqazın qartalı adlandıran kol dibində dünyaya göz açanların bənzətmələri əsla ona layiq deyil. Əslində o Qafqazın qartalı deyil, şir dalınca gedən çaqqal olub. Elə Stalinə bənzəyənlər də gödən yırtan çaqqallardır. Elə ki, şir qocalar haldan düşür, daha heç nə ovlaya bilmir, onlar bu çaqqallarla birləşib bu şirin özünü parçalayırlar. Bilin ki, Stalin və Stalinin ətrafı belədir. Onlardan ağ gün və xoşbəxtlik gözləmək axmaqlıqdır. Onların çaldığı havaya qəti oynamayın. Öz oğulunuza, qızınıza, qohum qardaşınıza deyin ki, hər çalınan havaya oynamasınlar, ağır oturub-batman gəlirlər. O bəydi, ağadı, bu axundu, molladı deyib bir-birinizi qırıb tökməyin. Bu Allahın çox ağır bir bəlasıdır. Görünür Adəm övladı haqq yoldan azdı ki, Allah bu bəlanı ona verdi. Hələ onun qarşıda çox fırtınaları var. Qorxuram ki, bu bəla əvvəlcə bizi bir-birimizə qırdıra, sonra da dünyaya qırğın salan Qəhrəman müəllim bu dediklərinə ən əvvəl özü əməl etdi o xeyirxah və şərəfli müəllim ömrü yaşadı. İsmayıl Şıxlının 1942-1945-ci illərində qələmə aldığı "Cəbhə yolları"nda əsərin son hissəsinə diqqət yetirəndə görürük ki, atası Kosalar kəndində müəllim işləyərkən 20 ildən çox kirayədə yaşayıb, təzəliklə ona ev tikmək üçün torpaq sahəsi veriblər. Lakin ev tikməyə imkanı olmadığından hələ qara damda yaşayır. İsmayıl Şıxlı bir ilə yaxın qara daxmalarında yaşayıb müəllimlik etdikdən sonra 1946-cı ildə Bakıya gəlib Azərbaycan Pedaqoji İnstitutun aspiranturasına qəbul oldu. 1949-cu ildən APİ-də müəllimlik etməyə başladı. O, XVIII-XIX-XX əsrlər Avropa və ABŞ ədəbiyyatına dair dərsliklər yazdı. İsmayıl Şıxlının elmi fəaliyyəti və yaradıcılığı, ictimai fəaliyyəti haqqında ayrı-ayrı bölümlərdə ətraflı söhbət açacağam.

Keşməkeşli ömür yolu keçən İsmayıl Şıxlı 1952-ci ildə yaxın qohumu Məmməd Şıxlının qızı Umidə xanımla ailə qurdu. Onların Fərrux Şıxlı və Elçin Şıxlı adlı oğulları oldu.

Bütöv insan ömrü yaşayan əziz və istəkli dostun İsmayıl Şıxlının yaradıcılığı haqqında söhbət açmazdan qabaq onu deyim ki, İsmayıl Şıxlı o qədər də çox əsər yazmayıb. Bunun da səbəbi belə idi. Avropa ədəbiyyatına dərindən bələd olan İsmayıl Şıxlı bədii əsərin nə demək olduğunu çox gözəl anlayırdı.

Bir qədər də İsmayıl Şıxlının ömrünü son dövrü, son illəri haqqında danışım. İsmayıl Şıxlının ömrünün ilkin dövrü dövran dəyişən vaxta düşdüyü kimi, son dövrü də dövran dəyişən vaxta düşdü. Söz yox ki, əsilzadə nəslindən olan İsmayıl Şıxlının ömrünün birinci dövrü çox ağır dövr idi. Çünki burda ağalığı gədalıq əvəz edirdi. II dövran dəyişməsi də İsmayıl Şıxlı üçün lap ağır idi. bu dövrdə qanlı terrorlar törətmiş qırmızı diktatorlar bolşevik gədalar, qıpqırmızı neobolşevik maskası taxaraq demokratiyadan, demokatik, hüquqi dövlətdən dəm vuruldular. Hərgah dövran I dəfə dəyişdiyi ilkin dövrdə komunistlərin kommunizm illuzyası ilə on-on beş yaşlı uşaq, gənc İsmayıl Şıxlını aldatəması mümkün idisə dövran II-ci dəfə dəyişəndə çəkilməz dərdləri çəkib gözləyirlər qor götürən 65-75 yaşlı İsmayıl Şıxlını aldatmaq mümkün deyildi. Ona görə də İsmayıl Şıxlı tarixi qabaqlayan yazıçı intiusiyası ilə ədəbi əsərləri olan əfsanələrini, rəvayətlərini və hekayələrini yazdı. İsmayıl Şıxlının iri həcmli əsərləri içərisində ikisi "Dəli Kür" romanı, "Ölən dünyam" romanı ölməz sənət əsərləridir.

İsmayıl Şıxlının "Dəli Kür" romanında Azərbaycan tarixində I dövran dəyişməsi nəticəsində baş verən həqiqətlər öz əksini tapıb. "Dəli-Kür" romanı haqqında çox danışıldığından, film çəkildiyindən, bu haqda müəyyən qədər məlumatımız var. Buna baxmayaraq bu qüdrətli əsər zaman-zaman oxucuların sevimli əsəri olaraq qalacaq. Ədəbi tədqiqatçılara da özü haqqında gözəl fikirlər dedirdəcək. Əlbəttə, əziz dostum İsmayıl Şıxlının 100 illik yubileyi keçiriləndə bu ildə ədəbiyyat tədqiqatçısı olmasam da bir qələm sahibi kimi "Dəli Kür" haqqında da mən də öz sözlərimi deyəcəyəm. İndi də İsmayıl Şıxlının son və qüdrətli əsəri "Ölən dünyam" romanı haqqında bir neçə kəlmə deyim. Bu əsərdə baş verən hadisələr də "Dəli Kür" romanında olduğu kimi İsmayıl Şıxlının göz açdığı Qazax bölgəsində baş verir, həm də hər iki əsərində İsmayıl Şıxlı öz əsilzdə nəslinin faciəli taleyini qələmə almışdır. İsmayıl Şıxlının "Ölən dünyam" əsəri haqqında danışmazdan əvvəl onun ömrünün sonuncu on beş ilində göstərdiyi ictimai-siyasi fəaliyyəti barədə danışım. Ağır şəkər xəstəsi olmasına baxmayaraq İsmayıl Şıxlının ömrünün bu illəri ən coşqun və ən yaradıcı illəri idi. Bu illərdə o həm YB-nə rəhbərlik edirdi, həm bir-birindən gözəl əsərlər yazırdı, həm Azərbaycanın bütövləşməsi və Azərbaycan türklərinin istiqlalı uğrunda nəhəng Şər imperiyası olan Sovet dövlətinə qarşı 1987-ci ilin sonlarından başlayaraq öz fikirlərini Azadlıq meydanındakı tribunadan yüz minlərlə mitinq iştirakşıları qarşısında cəsarətlə söyləyirdi. İsmayıl Şıxlının ictimai-siyasi, elmi ədəbi yaradıcılığını akademik, dilçi alim, ədəbiyyat tədqiqatçı Nizami Cəfərov belə qiymətləndirir: "...Azərbaycan xalqının həyatında baş verən ən mühüm ictimai-siyasi hadisələr İsmayıl Şıxlının "əbədi" hərəkatına təsir edir, onda öz izini qoyur, ancaq bu hərəkat dayanmır və hərdən mənə elə gəlir ki, əbədilik keyfiyyəti nəsli bütövlöükdə təyin etdiyi kimi, onun hər bir nümayəndəsinin xarakterinə, əxlaqına da aiddir: qeyri-adi təmkin, heç zaman, heç yerə tələsməmək, heç nəyə dərhal reaksiya verməmək, yeniliyi ancaq və ancaq keçmişin təcrübəsi əsasında qəbul eləmək, bu nəslin mən tanıdığım dəmək olar ki, bütün nümayəndələrinə xasdır. İsmayıl Şıxlı yetmiş illik yubileyi münasibəti ilə keçirilən təntənəli gecədə dedi: "Mən dostlarımın xoş sözlərinə görə nə qədər şad olsam da, yaxşı bilirəm ki, yetmiş yaş ömrün qurub çağıdır. Bir sıra sözlərimizi indi də deməyib nə vaxt deyəcəyik".

Doğrudan da İsmayıl Şıxlı ömrünün son on ilində amansız xəstəlik macal verdiyi qədər öz sözlərini mitinqlərdə, iclaslarda, parlamentdə, son hekayələrində və son romanı olan "Ölən dünyam"da dedi. İsmayıl Şıxlının gözləri görmədiyindən o "Ölən dünyam" romanını həyat yoldaşı Umidə xanıma diktə etdi və Umidə xanım bu romanı qələmə aldı. Bu çox ağır ədəbi proses olsa da, İsmayıl Şıxlı bu romanını da əbədiyyətə həkk etdi. İsmayıl Şıxlının "Ölən dünyam" romlanındakı hadisələr daha dramatik, böyük zaman kəsiyini əhatə etsə o, fikirlərini çox sərrast və yığcam ifadə edərək misilsiz bir sənət əsəri yarada bilmişdir. Onu da deyim ki, İsmayıl Şıxlı 70-ci illərdə qələmə almışdı. İstədiyi "Qanlı təpə" romanını da, "Ölən dünyam" romanına sığışdırmağı bacarmışdı. Bu onun nə qədər qüdrətli sənətkar olması deməkdir.

**FƏZAİL İSMAYIL BÖYÜKKİŞİ**